## Tezis və Dissertasiyalar

Ali dərəcə proqramları qaydaları və prosedurlarına əlavə olaraq, Yüksək Təhsil Komitəsi **(Committee of Graduate Studies)** magistratura, doktorantura və digər professional dərəcə proqramları üçün ümumi qaydalar və xüsusi tələblər müəyyən edir.

Yüksək Təhsil Komitəsi şura tərəfindən seçilmiş mütəxəssislər, nümayəndələr, magistr və ya doktorant tələbələrdən ibarətdir.

Dərəcə almaq istəyən namizəd elmi rəhbəri ilə birlikdə Yüksək Təhsil Komitəsinə iş planını təqdim etməlidir.

Bu plan Yüksək Təhsil Komitəsi tərəfindən təsdiq edilir və namizəd və onun rəhbəri tərəfindən imzalanır. Buraya aşağıdakılar daxildir:

- Məcburi və seçmə fənlərin adları və kreditlər
- Təklif olunan tədqiqat işinin adı və qısa xülasəsi (tezis, dissertasiya və ya tədqiqat layihəsi üzrə)

Namizədin akademik təcrübəsindən və müraciət etdiyi proqramdan asılı olaraq müxtəlif kurslarla yanaşı, müstəqil öyrənmə və tədqiqat işləri aparmaq imkanları da vardır.

Namizədin iş planına və apardığı tədqiqata uyğun olaraq magistr dərəcəsi almağın son mərhələsinin üç forması mövcuddur:

- Magistr dissertasiyası
- Hesabat və ya xüsusi layihə
- Ayrılıqda hər hansı bir elmi-tədqiqat işi olmadan praktiki iş ilə birlikdə məcburi və seçmə fənnlər kursu

Magistr dissertasiyası bir neçə kreditlə (adətən 6 və 8 arasında) dəyərləndirilir, həmçinin hesabat və layihələr də kreditlə dəyərləndirilir, lakin hesabat və layihələrin krediti dissertasiyadan az olur.

Magistr proqramları sənaye və digər müxtəlif sahələrdə çalışacaq və eləcə də sonrakı tədqiqatları davam etdirəcək (adətən fəlsəfə doktoru proqramları üçün) yüksək ixtisaslı tələbə hazırlamaqdan ötrü yaradılmışdır.

Fəlsəfə dokotru proqramları yüksək səviyyədə tədqiqatlar aparacaq tələbələrin hazırlanmasından ötrü nəzərdə tutulmuşdur.

Fəlsəfə doktoru dərəcəsi yeni biliklərin verilməsi və tədqiqatın artan dərinliyinin yaradılmasına görə verilir.

Fəlsəfə doktorluğu dərəcəsinə namizəd olanlar iş planına təklif olunan tədqiqat sahəsinə aid məlumatı, dissertasiyanın mövzusunu, eləcə də, bitirdiyi akademik kurslar haqqında müəyyən məlumatı daxil etməlidir.

Fəlsəfə doktorluğu dissertasiyası adətən 10-12 kreditlə dəyərləndirilir, istisna hallarda kreditlərin sayı artırıla bilər.

Yüksək Təhsil Komitəsinə hər bir magistr və fəlsəfə doktorluğu dissertasiyaları üçün elmi rəhbər və kənar ekspertlərin də daxil olduğu dörd (beş) nəfərdən ibarət olan **Tezis Komitəsi** (son tədqiqat işi nəzərdə tutulan magistr və digər professional dərəcə proqramları üçün) və ya **Dissertasiya Komitəsi** (Fəlsəfə doktoru dərəcəsi üçün) daxildir.

Namizəd elmi rəhbərinə, eləcə də Tezis və ya Dissertasiya Komitəsinə iş planına dəyişiklik etmək üçün müraciət edə bilər. (bir və ya daha artıq kurs əlavə edilməsinə dair və ya dissertasiyanın adının dəyişdirilməsi barədə və s.)

Iş planına hər hansı dəyişiklik edilmişsə, bu dəyişikliklər dərəcə verilməsi təsdiq olunmamışdan ən azı iki həftə əvvəl Yüksək Təhsil Komitəsinə təqdim olunmalıdır.

Doktorluq və ya magistr dərəcəsi alacaq namizədlərin tədqiqat işi yekun olaraq şifahi müdafiədən keçməlidir; bu vaxt namizəd araşdırma apardığı sahədə geniş bilik nümayiş etdirməli və araşdırma apardığı sahədə dissertasiyanın rolu və əhəmiyyətini göstərməlidir.

Dissertasiya (Tezis) Komitəsi yekun şifahi imtahan üçün nəzərdə tutulmuşdur.

Namizəd Yüksək Təhsil Komitəsinə dissertasiyasının yekun variantını təqdim etməzdən əvvəl dissertasiya elmi rəhbər və Dissertasiya (Tezis) Komitəsinin üzvləri və ya onların bir neçəsi tərəfindən təsdiq olunmalıdır.